AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

RİSALƏ

Araşdırmalar toplusu

13

Bakı – "Elm və təhsil" – 2017

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 16 mart 2017-ci il tarixli (protokol № 3)
qərarı ilə çap olunur

Redaktor: **Rafael Hüseynov,**
akademik

Redaksiya heyəti:
Kamil Allahyarov, filologiya elmləri doktoru
Xatirə Bəşirli, filologiya elmləri doktoru
Şəfəq Əlibəyli, filologiya elmləri doktoru
Aida Qasımova, filologiya elmləri doktoru

Risalə. Araşdırmalar toplusu. 13-cü kitab
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 216 s.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ("Şərq" – Tərcümə toplusu, "Məclis" – Mərasimlər toplusu, "Xəzinə" – Kataloqlar toplusu, "Qaynaq" – Mənbələr toplusu) daxil olan "Risalə" – Araşdırmalar toplusunun bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2017

Ləman MUXTAROVA

XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ MƏTBUATINDA MİLLİ İSTİQLAL UĞRUNDA MÜBARİZƏ MÖVZUSU VƏ PARLAMENT HƏYATI

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, istiqlaliyyət, azadlıq təfəkkürü, Məclisi-Məbusan, Rəsulzadə

Key words: Azerbaijan Democratic Republic, independence, thought of freedom, Parliament, Rasulzadeh

Ключевые слова: Азербайджанская Демократическая Республика, независимость, вольномыслие**,** парламент, Расулзаде

XX əsrin əvvəllərində Azərbaycan xalqının tarixində istiqlal mübarizəsinin şanlı səhifələri açılır. Xalqımızın sözügedən dövrdə özünü bir millət olaraq dərk etməsi, azadlığı uğrunda qətiyyətli mübarizəsi, müstəqil düşüncə tərzinin formalaşması indiki müstəqil Azərbaycanın təməl prinsiplərini təşkil etməklə yanaşı, milli dirçəlişi yaddaşlara həkk edir. Bu istiqlal yolunda qətiyyətlə mübarizə aparan və bu mübarizəni ədəbi-mədəni fikir olaraq formalaşdıran ideoloqlar milli şüurun oyanmasında əvəzsiz rol oynamışlar.

Bu dövrdə Azərbaycan tarixinin ən əlamətdar hadisəsi cümhuriyyətimizin yaranması oldu. Ümummilli lider Heydər Əliyev bu dövrü Azərbaycan tarixinin ən parlaq səhifəsi hesab edirdi: "1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir, xalqımızın böyük nailiyyətidir. Məhz bütün bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradır" [9].

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli özünüdərkin inkişafında və milli dirçəliş zəminində əlamətdar bir hadisə idi. Tarix boyu, bildiyimiz kimi, ədəbiyyat və eləcə də mədəniyyətin digər sahələri xalqın özünüdərk və təşəkkülündə, milli ruhunda, azadlıq təfəkküründə formalaşmasında əhəmiyyətli rol oynamışdır. XX əsrin əvvəllərində, Azərbaycanın da milli oyanışı və azadlığı uğrunda mübarizəsində milli mədəniyyətin təməlini təşkil edən ədəbiyyatın və dilin əhəmiyyəti əvəzsiz olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti iyirmi üç ay davam edən qısa bir ömür sürsə də, həmin dövr zəngin ədəbi məhsulla əlamətdar olmuşdur. Ədəbiyyatın xalqın mənəvi zənginləşməsində, özünüdərkində, milli ruhun təşəkkülündə müstəsna rolu olmuşdur. Azərbaycan xalqının XX əsr milli intibahı XIX əsrin ortalarından başlamışdır. Maarifçilik hərəkatı xalqın milli şüurunun bütün qatlarına nifuz edir və onun şüurunu formalaşdırırdı.

Artıq XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq məfkurəsinin yeni səhifələri açılır. Bu dövrün milli ziyalı ordusu Azərbaycan Xalq Cümhuriyyətinin özülünü hazırlayır. Əli bəy Hüseynzadənin, Cəlil Məmmədquluzadənin, Əhməd bəy Ağaoğlunun, Sabirin, Firidun bəy Köçərlinin, Nəriman Nərimanovun, M.Ə.Rəsulzadənin, M.Hadinin, Əhməd Cavadın və digər görkəmli fikir və söz sahiblərinin ədəbi-bədii və siyasi

intellektual fəaliyyəti Azərbaycanda yalnız milli özünüdərkin deyil, həm də milli azadlıq təfəkkürünün formalaşmasında və inkişafında çox böyük rol oynadı.

Ədəbi əsərlərlə yanaşı, həmin dövrdə mətbuatın rolunu və yerini də xüsusi olaraq qeyd etmək lazımdır. Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadənin başçılıq etdiyi "Həyat" və "Füyuzat" jurnalları belə mətbu orqanlardan idi. Fransada təhsil aldığı müddətdə, tələbəlik illərində Əhməd bəy Ağaoğlu Avropa demokratik ideyalarından təsirlənərək Azərbaycanda xalqının milli özünüdərketmə ideyalarının yayılmasına şərait yaradır. Ə.Ağaoğlu xalqın qurtuluş yolunun təhsil və mədəniyyətdən keçdiyini bildirirdi. O, 1918-ci ildə Azərbaycanda ilk müstəqil demokratik cümhuriyyətin qurulması sevinci ilə vətənə qayıdır və parlamentə üzv seçilir. Əhməd bəy Ağaoğlu öz fəaliyyəti dövründə erməni-müsəlman qarşıdurmalarının alınmasında, xalqın milli azadlıq hərəkatında mühüm rol oynamışdır.

Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmi xalqın milli dirçəliş və milli mübarizə tarixində fəal iştirak edən və fədakarlıq göstərən M.Ə.Rəsulzadənin çap etdirdiyi "Milli dirilik", "Tutduğumuz yol", "Kənd məktubları", "Məktəb və mədrəsə", "Getdiyimiz yol", "Ehtiyaclarımız" məqalələrində öz parlaq əksini tapmışdır. Bu məqalələrdə milli azadlıq ruhu inamla ifadə olunurdu.

1918-ci ildə Azərbaycan xalqı nəinki türk xalqları arasında, həmçinin bütün İslam Şərqi aləmində ilk dəfə olaraq respublika qurdu. Azərbaycan Xalq Cümhuriyyətinin daxili tərkibi və idarəçilik ziyalı təbəqələrdən ibarət idi. Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti eyni zamanda bütün Şərqdə, o cümlədən türk dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Cəmi on yeddi ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti parlamenti sübut etdi ki, xalqımız artıq parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. İyunun 17-də Azərbaycan Milli Şurasının iclasında M.Ə.Rəsulzadə öz alovlu nitqində deyirdi: "Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə yeni doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatəolunmaz mühüm dəqiqələr keçirir. Bu yeni – türk nizad siyasəti rişə və buluğ bulub da millətlər zümrəsinə vəsail-həyat olaraq girə biləcək, yoxsa sısqa cocuk kimi südəmər halında tərki-həyat edəcəkdir? İştə bütün zehinləri işğal edən bir məsələ! İştə bir zaman ki, müqəddərat əllərinə alanlar üçün Azərbaycan nüzadini tələf etdirməmək kimi müşkül, fəqət müşküllüyü ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor" [7, 17].

Bu dövrün ziyalılarının M.Ə.Rəsulazdə də başda olmaqla ən mühüm vəzifəsi Azərbaycanın azad, müstəqil, milli dövlətini qurmaq, xalqın milli əzminin, azadlıq ruhunun formalaşmasına zəmin yaratmaqdan ibarət idi.

M.Ə.Rəsulzadə bir millətin diriliyinə onun qiymətli bir xəzinəsi kimi yanaşırdı. Bir millətin dirçəlişini nəinki həmin xalqın, həm də bəşəriyyətin dirçəlişi hesab edirdi. Onun fikrincə, bir millətin ölgün fikirlərlə yaşaması həmin xalqın bədbəxtliyinə və hətta bəşəriyyətə böyük bir nöqsandır. M.Ə.Rəsulzadə bir xalqın elmən, ruhən və cismən qüvvətli olmasının diriliyi sevməkdən ibarət olduğuna inanırdı. Diriliklərin ən qiymətlisi milli dirilikdir. O, "Dirilik nədir?" məqaləsində öz xalqına belə bir dirçəliş arzu edərək yazırdı: "Filosoflar və sufilər nə deyirlərsə-desinlər: dirilik dünyanı sevməkdən və öz

hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir" [11].

M.Ə.Rəsulzadə millətin tərəqqisini üstün tutaraq bildirirdi ki, bu, yalnız müstəmləkədən azad olandan sonra kamil bir tərəqqi olar. Çünki əgər bir millət digər bir millətin təsiri altında, onun adət-ənənəsi ilə, onun ruhu ilə tərəqqi edəcəksə, öz xüsusunu itirəcəkdir. Onun fikirlərini bu sitatda aydın görmək olar. "Bu gün İranı keçirməkdə olduğu bu fəlakətli günlərdən "xilas" etmək üçün əlindəki istiqlal kölgəsindən də məhrum edib, başqa mütərəqqi bir millətin idarə və təmsili altına versəniz, ehtimal ki, Ənzəli bir neçə ilin zərfində Bakıya meydan oxuyacaq qədər tərəqqi edər. Və bəndər bu şəhər də Bombeydən heç də geri qalmaz. Fəqət bu səri tərəqqinin müqabilində əmin olunuz ki, İran bir daha nə Firdovsi yetirər, nə Sədi, nə Hafiz" [11].

Hər bir millət öz kökünə, ənənəsinə, milli ruha söykənərək tərəqqi etməlidir. Dövrün ədibləri, M.Ə.Rəsulzadə kimi sinəsi azadlıq ruhu ilə döyünən qələm sahibləri bu məqalələri ilə xalqı milli oyanışa səsləyir, xalqın maariflənməsinə və tərəqqisinə nail olmağa çalışırdılar.

Bu dövrdə milli ziyalı təbəqəsini bir yerdə tuta bilən əsas mərkəz 1898-ci ildən sonra Ə.Topçubaşovun redaktəsi ilə çıxmağa başlayan "Kaspi" qəzeti idi. Rus dilində çıxmasına baxmayaraq, yeni redaktorun gəlməsindən sonra bu qəzet yerli məsələlərə, milli həyatın müxtəlif sahələrinə aid yazılar çap etməyə başladı. Məhz buna görə o, milli mətbuat orqanı kimi qəbul edilirdi. Qəzetə 1989-cu ildən sonra Əhməd bəy Ağaoğlu rəhbərlik etməyə başladı. O, qəzetdə tez-tez siyasi-ideoloji məsələlərlə bağlı, milli həyatın yolları və xalqı ruhlandıran digər məqalələr dərc etdirirdi. Əhməd bəy Ağaoğlunun "Bizim millətçilər" başlıqlı məqaləsi də özünün ideoloji-siyasi baxımından mühüm və əhəmiyyətlidir. O, qeyd edirdi ki, millətçilik möhtəşəm bir hadisədir, bəşəriyyətin təkamül tarixində vacib mərhələdir: "Həqiqi, dürüst, sonunadək özünə sadiq qalan millətçi özününkünü müdafiə edərkən başqasınınkı üzərində hər hansı bir zülmü də rədd etməlidir". Ə.Ağaoğlu və eləcə də dövrün digər ədibləri milli azlıqların assimilə edilməsinə qarşı çıxaraq şovinizmi rədd edirdilər. Əhməd bəy Ağaoğlu keçmişi silib atmaq və ya ideallaşdırmaq lazım olmadığını deyirdi. O, bir xalqın keçmişdən dərs almaq üçün tarixini öyrənməsini zəruri hesab edirdi. "Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyətdardır" şüarı ilə Azərbaycan xalqının istiqlal yoluna şərəflə sahiblənirdi [9].

Milli azadlıq ruhu Azərbaycan Xalq Cümhuriyyətnin quruluşu ərəfəsində M.Hadi, Ə.Cavad, M.B.Məmmədzadə, C.Cabbarlı, Ümmügülsüm, Əli Yusif kimi şair və publisistlərin əsərlərində inamla ifadə olunurdu.

1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövrünün zəngin ədəbiyyatı, öz diqqətəlayiq poeziyası, nəsri, dramaturgiyası və teatrı olmuşdur. Ü.Hacıbəyli, M.Hadi, A.Şaiq, C.Cabbarlı, Ə.Cavad kimi milli ziyalılar cümhuriyyətin milli azadlıq xəttinin fəal ideoloqları olmuşlar.

Azərbaycan xalqının öz müstəqilliyi və azadlığı uğrunda mübarizəsi dövrün nəsr əsərlərində də parlaq əksini tapmışdır. Milli dirçəliş, istiqlal ideyası C.Məmmədquluzadə, C.Cabbarlı, A.Şaiq, Ə.Haqverdiyev, Ü.Hacıbəyli kimi yazıçı və publisistlərin əsərlərində əsas ideya xəttini təşkil edirdi. M.Məmmədzadənin "Bakı uğrunda mübarizə" pyesində Bakının azad edilməsi və hökumətin Bakıya köçürülməsi və qələbənin zirvəsi əks olunur.

Milli azadlıq idealının parlaq əksini C.Məmmədquluzadənin "Anamın kitabı" pyesində aydın görmək olar. C.Məmmədquluzadə bu əsərdə ana dilimizin qorunub saxlanması, öz milli mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə sahib çıxmağı bizə öyrədir. "Anamın kitabı" pyesində ana dilimizin başına gətirilən faciələri göstərir, millilik ideyası xalqın ruhunda hakim ideyaya çevrilirdi.

Cümhuriyyət dövrü ədəbiyyatında xalqın öz ruhundan doğan azadlıq hərəkatı, milli ənənələrin tərənnümü, ictimai-siyasi azadlığa qovuşmanın sevinci daha çox poeziyada özünü göstərirdi. M.Hadi, H.Cavid, A.Şaiq kimi məşhur romantiklər və "Cümhuriyyət şairi" Ə.Cavad başda olmaqla, şairlər dəstəsi 1918-20-ci illərdə Azərbaycan istiqlalını tərənnüm edirdilər. Onlar şeirlərində azadlığa qovuşmanın yollarının yalnız maariflənmədən keçdiyini ifadə edirdilər.

Cümhuriyyət dövrü poeziyasını Əhməd Cavadsız düşünmək olmaz. Azadlıq hissi, xalqın ruhundan doğan inam Ə.Cavadın şeirlərində fərəh hissi ilə tərənnüm olunurdu. Onun "Dalğa" kitabında xalqın öz azadlığı uğrunda çətin mübarizəsi, oyanışı, milli istiqlalı kimi məsələlər mühüm yer tuturdu.

Soranlara mən bu yurdun,
Anlatayın, nəsiyəm:
Bən çeynənən bir ölkənin
"Haqq!" bağıran səsiyəm! [4, 128].

Əhməd Cavadın azadlığa inam hissi ilə döyünən ürəyi və bu ürəkdən gələn qələmindən Azərbaycan Xalq Cümhuriyyətinin və indiki müstəqil respublikamızın milli marşı yarandı. Əhməd Cavad xalqını, millətini azad, müstəqil, gələcəyə inamlı görmək istəyirdi. O, şeirlərində xalqı daha möhkəm olmağa, birliyə, azadlığı qazanmaq üçün, yadların boyunduruğu altında yaşamamaq üçün özünəinam hissi aşılayırdı.

Ey şanlı ölkənin şanlı ordusu,
Unutma Qafqaza girdiyin günü!
Gəlirkən qovmağa Turandan urusu,
Ayağını Qara dəniz öpdümü?!
İlk atarkən əski bürcə addımı,
Kars qalası salam topu atdımı?
Sən yaparkən orda zəfər şənliyi,
Məğlub düşman qaşlarını çatdımı? [4, 143].

Keçmiş imperiya ərazisində ilk böyük rus inqilabının dalğasında üzə çıxan sosial azadlıq hərəkatı və milli intibah dalğası öz təzahürünü M.Hadinin yaradıcılığında tapır.

Cəhalətdir əsası zülmü cövri-xanimansuzun,
Maarif olsa, zülmün məhv olar, əlbəttə bünyani [6, 9].

Hadi cəmiyyəti siniflərə və təbəqələrə parçalamır, dövrün milli azadlıq hərəkatını milli oyanış kimi, ümummilli intibah kimi tərənnüm edirdi. O, bütün

cəmiyyətlərin bərabər olduğu bir dünya arzu edirdi və sinfi, irqi mənsubiyyətdən asılı olmayaraq, bütün müsəlmanları birliyə çağırırdı.

Qaldıq əlində bir sürü ərbabi-vəhşətin,
Olduq əsiri pənceyi-qəhrü müsibətin...
Hər kəs gərək bərabər ola hər hüquqda,
Ehsanidir bu ərz bizə dəsti-qüdrətin [5, 298].

Nəinki daxili zülmün və sinfi bərabərsizliyin, hətta yada baş əyməyin də səbəbi milli, dini, mənəvi, mədəni, elmi cəhalətdir. Hadi kimi şairlər hesab edirdi ki, hürriyyətə gedən yolda maariflənmək, cəhaləti yox etmək və bu yolda qurban vermək lazımdır.

Nə istedadi-ülviyyət, nə də ürfanımız vardır,
Fikirsiz, xeyirsiz, yüz min sürü nadanımız vardır.
Deriz məqsudumuzdur kəbeyi-ülyayi-hürriyyət,
Fədayi-ruhi-hüriyyət nə bir qurbanımız vardır [6, 9].

1918-1920-ci illərin ideyalarını özündə əks etdirən "İqbal", "Dirilik", "Açıq söz" və "Azərbaycan" qəzetləri, digər mətbu orqanlar kimi, xalqın azadlığı, millətin tərəqqisi və dövlət nizam-intizamının əsas qayəsi olaraq mühüm rol oynayırdı. "Azərbaycan" qəzeti həm azərbaycanca, həm də rus dilində çap olunurdu. Qəzetdə ideya və məzmun baxımından zəngin ədəbi, siyasi, publisistik məqalələrlə yanaşı, respublika hökumətinin rəsmi sənədləri, qərar və fərmanları, Məclisi-Məbusan – parlament iclaslarının hesabatları, stenoqramları çap edilirdi. Qəzet 1919-cu ildə özünün 46 sayında parlamentin 25 iclasının bütün gedişini tam əks etdirmişdir. "Azərbaycan" qəzeti cümhuriyyət tarixinin və parlament həyatının salnaməsi və mənbəyi olmuşdur. Qəzetdə rəsmi sənədlərdən əlavə, Məclisi-Müəssisanın təşkili ilə bağlı qiymətli yazılar dərc edilir, demokratik ideoloqlar, qurucular bu yolla xalqa müraciət edirdilər. Belə ki, Azərbaycan Milli Şurası Məclisi-Müəssisanın altı ay ərzində çağırılmasını ərz etmiş, məclisi mümkün qədər tez çağırmaq üçün xalqın bilavasitə siyasi məsələlərdə iştirakını mühüm hesab etmişdir. "Azərbaycan" qəzeti bu xüsusda millətlə hökumətin arasında körpü idi. Şurayi-Millinin rəisi M.Ə.Rəsulzadinin nitqindəki inam, qürur və iftixar xalqı necə məsuliyyətli bir zaman içərisində olursa-olsun qorxutmurdu: "Bizim daxili hürriyyətimizə icrayi-nüfuz edən və edəcəyi mütəsəvvür bulunan qüvvət yabançı bir qüvvət deyil, öz qüvvətimizdir. Burada istiqbal böyük və şanlı bir millətin müxtəlif şöbə və budaqlarını tövhidə doğru gedəcək ki, eyni məqsədimizdir. Bütün məsaimizi bu hürriyyəti-siyasiyyənin təşəbbüsünə sərf edəlim. Bunun üçün də hər dürlü fədakarlığa amadə bulunalım" [7, 19-20].

Xalqa hər şey gün kimi aydın idi. Demokratik ideyaların yaranmasında, azadlıq təfəkkürünün xalqda formalaşmasında və parlament idarəçiliyi səviyyəsinə qaldırılmasında məhz mətbuat və ədəbiyyat xalqın silahdaşı idi.

Beləliklə, XX əsrin əvvəllərində milli azadlıq təfəkkürünün formalaşmasında yenicə yaranan cümhuriyyətin və cümhuriyyətimizi tanıdan, xalqda azad, milli ruh formalaşdıran fəal ideoloqların, ədiblərin, ziyalıların cox müstəsna rolu olmuşdur. Xalqımız maariflənmək yolunda ən böyük

addımlarını məhz bu dövrdə atmış və müstəqil bir dövlət, azad respublika, müstəmləkədən qurtulub dirçəliş yolunda qətiyyətlə addımlamağı yaddaşına həkk etmişdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı: Lider Nəşriyyat, 2005, 479 səh.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 1-ci cild, Bakı: Azərbaycan, 1998, 976 səh.
3. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920). Bakı: Elm, 2008, 696 səh.
4. Ə.Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 296 səh.
5. Azərbaycan şeiri antologiyası (1905-1920-ci illər). Bakı: Şərq-Qərb, 2005, 432 səh.
6. M.Hadi. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 464 səh.
7. "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918–aprel 1920). I cild. Bakı, Qanun, 2016, 656 səh.
8. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 392 səh.
9. http://www. azerbaijan-news. az
10. http://axc. preslib. az
11. http://rasulzade. org

Laman MUKHTAROVA

THE THEME OF THE STRUGGLE FOR NATIONAL INDEPENDENCE AND PARLIAMENTARY LIFE IN THE AZERBAIJANI LITERATURE AND PRESS IN THE EARLY XX CENTURY

SUMMARY

The article characterizes the foundation of national freedom, national thought in Azerbaijan in the early XX century. It is emphasized about the main event of the period which is considered the formation of the Azerbaijan Democratic Republic.

In this article we came to conclusion that the basis for the foundation of the national liberty is the national culture that formed national consciousness. National culture find itself on the literary process of the period which inspired by free spirit. All poets, writers, publicists praised freedom, liberty, sovereignty of people in their writings. They considered enlightenment the only way out from colonial conditions.

In this article the examples were shown from great active ideologist such as M.Hadi, A.Javad, M.A.Rasulzadeh, J.Mammadquluzadeh and etc. who really wanted to see their nation independent.

In the conclusion the main role of the national culture is taken into account on the way of enlightenment in XX century.

Ляман МУХТАРОВА

БОРЬБА ЗА НАЦИОНАЛЬНУЮ НЕЗАВИСИМОСТЬ
РЕЗЮМЕ

Статья посвящена развитию идеи национальной свободы и национального самосознания в начале XX века. В статье даны основные события, лежащие в основе формирования Азербайджанской Демократической Республики.

Мы пришли к такому заключению, что национальная независимость – это национальная культура, сформированная национальным самосознанием.

Национальная культура нашла себя в литературном процессе того периода, который был вдохновлен духом свободы.

Все поэты, писатели, публицисты в своих произведениях восхваляли свободу, независимость и суверенитет. Единственный выход из ситуации они видели в просвещении народа. В статье в качестве примеров указаны такие великие идеологи как М. Хади, А. Джавад, М. А. Расулзаде, Дж. Маммадгулузаде и другие, которые действительно хотели видеть национальную независимость.

В заключении отметим, что в основе развития национальной культуры в XX веке лежит просвещение.

KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Rafael Hüseynov. **Allah və insan sevgisi Baba Tahirin ədəbi və fəlsəfi irsində** **5**
Natəvan Bağırova. **Seyfəddövlə sarayında ədəbi mühit** **40**
Cəmilə Dəmirova. **Səalik şairlərin yaradıcılığında azadfikirlilik motivləri** **49**
Nərmin Əliyeva. **Hafizəqədərki klassik ədəbiyyatın Şəhriyar yaradıcılığına təsiri** **61**
Şəhla Hacıyeva. **Klassik ərəb ədəbiyyatında qəzəl, antiqəzəl və müzəkkər qəzəl** **70**
Heybət Heybətov. **İbn Mənzurun həyatı, ədəbi şəxsiyyəti və müəllifi olduğu əsərləri** **78**
Dilbər Hüseynova. **Əməvilər dövründə ərəb poeziyasının inkişaf istiqamətləri** **88**
Təranə Verdiyeva. **Nizami Gəncəvi yaradıcılığında Gəncə** **94**
İlahə Məmmədova. **Meredit Ouensin Məhsəti Gəncəvinin həyatından bəhs edən əlyazma haqqında araşdırması** **104**
Aytən Nəsibova. **Səfəvilərin qulam siyasəti və bu məsələnin müasir Qərb ədəbiyyatında əksindən nümunələr** **112**

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Ziyafət Hüseynova. **Hüseyn Cavid və Əhməd Cavadın qəzəllərinin oxşar xüsusiyyətləri** **125**
Ləman Muxtarova. **XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və mətbuatında milli istiqlal uğrunda mübarizə mövzusu və parlament həyatı** **130**
Qabil Əliyev. **Böyük Vətən müharibəsi illərində "Kommunist" qəzetində poeziya** 137
Natavan Mustafayeva. **Ənvər Məmmədxanlı əsərlərinin dili və üslubu** **154**
Mahir Həmidov. **Mixail Nuaymə yaradıcılığında tənasüx etiqadının bədii təcəssümü** 160
Təbəssüm Muxtarova. **Çingiz Abdullayevin "Payız madriqalı" və Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərində gender problemi** **171**
Dürdanə Səmədova. **Ədəbiyyatda fantastika janrı: məsələnin qoyuluşuna dair** **179**